*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 12 iyul 2017-ci il № 52 (2169) Qiyməti 25 qəpik


# Müdafiə naziri cəbhə xəttində yerləşən birləşmə və hərbi hissələrin döyüşə hazırlıq səviyyəsini yoxlayıb



*Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən cəbhə xəttində yerləşən birləşmə və hərbi hissələrin döyüşə hazırlıq səviyyəsi yoxlanılıb. Azərbaycan Silahlı Qüvvələrinin qarşısında duran başlıca vəzifə yüksək döyüş hazırlığına nail olmaq və Ali Baş Komandanın verdiyi istənilən döyüş tapşırığını məharətlə yerinə yetirməkdir. Ona görə ölkəmizdə ordu quruculuğuna dövlət rəhbərliyi səviyyəsində böyük diqqət yetirilir. Bu gün bütün qoşun növlərinə məxsus hərbi hissələrimiz ən müasir silah və texnika ilə təchiz edilib, ordumuzun döyüş potensialı qat-qat möhkəmlənib.*

Müdafiə Nazirliyinin planlı şəkildə təşkil etdiyi kompleks döyüş hazırlığı tədbirləri bütün qoşun növlərində şəxsi heyətin taktiki və ixtisas bacarığının artırılmasına yönəlib. Quru qoşunlarında, Hərbi Hava, Hərbi Dəniz Qüvvələrində şəxsi heyət gündəlik məşğələlərdə, praktik dərslərdə, poliqonlarda keçirilən təlimlərdə taktiki vərdişlərə yiyələnir, qarşılıqlı əlaqələri möhkəmlədir, sərəncamlarına verilmiş modern silahlardan və döyüş texnikalarından istifadə etməyi mənimsəyir.

Eyni zamanda hər bir zabit və əsgər başa düşür ki, bu gün Vətənimizin 20 faizdən artıq bir hissəsi məkrli düşmənin işğalı altındadır, hərbi hissələrimiz tez-tez atəşkəs rejimini pozan, ön xətdə mütəmadi təxribatlar törədən Ermənistanın silahlı birləşmələri ilə təmas şəraitində döyüş növbəsi aparır.

İyulun 4-də məkrli düşmənin Füzuli rayonunun cəbhəyanı Alxanlı kəndində dinc sakinləri qətlə yetirməsi bir daha göstərir ki, müdafiə mövqelərində dayanmış bölmələrimizin daim döyüşə hazır vəziyyətdə olması, məsuliyyətlə döyüş növbəsi aparması Müdafiə Nazirliyi rəhbərliyinin böyük önəm verdiyi məsələlərdəndir. Yəni, zabit və əsgərlərimiz heç vaxt təmas xəttində ayıq-sayıqlığını itirməməli, düşmənin təxribatlarına layiqincə cavab verməli, hərbi hissə və bölmələrimizə həvalə edilmiş döyüş mövqelərini göz bəbəyi kimi müdafiə etməlidirlər. Cəbhə xəttində yerləşən birləşmə və hərbi hissələrin döyüşə hazırlıq səviyyəsinin Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən yoxlanması da bu məqsəddən irəli gəlir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına görə, qəfil yoxlama zamanı döyüş tətbiqi üzrə qoşunlara verilən qərarlar dəqiqləşdirilib, bütün qoşun növləri və qisimlərinin qarşılıqlı əlaqədə fəaliyyət məsələləri bir daha öyrənilib.

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Müdafiə naziri cəbhə xəttində yerləşən birləşmə və hərbi hissələrin döyüşə hazırlıq səviyyəsini yoxlayıb



(Əvvəli 1-ci səhifədə)

Müdafiənin ön xəttində yerləşən hərbi hissələrdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov şəxsi heyət, döyüş texnikaları və digər hərbi vasitələrin hazırlığı və tətbiqi məsələləri ilə maraqlanıb.

Silahlı Qüvvələrin Ali Baş Komandanının tapşırığına əsasən, Müdafiə Nazirliyinin rəhbərliyi Ermənistan silahlı qüvvələri tərəfindən iyulun 4-də Füzuli rayonu Alxanlı kəndinin atəşə tutulması nəticəsində mülki şəxslərin həlak olduğu yerə baxış keçirərək mərhumların yaxınlarına başsağlığı verib. Sakinlərlə görüşdə mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində əlavə tədbirlərin görüldüyü də diqqətə çatdırılıb.



"Azərbaycan Ordusu"

# Silahlı Qüvvələrin Baş Qərargah rəisi Beynəlxalq Konfransda iştirak edib

*Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov 6-7 iyul tarixlərində Nyu York şəhərində (ABŞ) Birləşmiş Millətlər Təşkilatının (BMT) qərargahında keçirilmiş "Silahlı Qüvvələrin Baş Qərargah rəislərinin ikinci beynəlxalq konfransı"nda iştirak edib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, konfransda BMT-nin sülhməramlı qüvvələrinin inkişafı, qüvvələrin çevik yerləşdirilməsi, təlimlər və digər aidiyyəti mövzular üzrə müzakirələr aparılıb, o cümlədən BMT-nin Sülhməramlı Əməliyyatlar və Səhra Dəstəyi İdarələrinin rəsmiləri ilə görüşlər keçirilib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*11 iyul 2017-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 133 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qaymaqlı, Fərəhli, Quşçu Ayrım, Aşağı Əskipara və Bala Cəfərli kəndlərində, Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi, Əsrik Cırdaxan və Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şuraabad, Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Qaraqaşlı, Şirvanlı, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# "Azərbaycan Ordusu hər hansı təxribata həmin anda dəqiq cavab verməyə hazırdır"

Azərbaycan Silahlı Qüvvələrinin bölmələri bütün cəbhə boyu döyüş hazırlığındadır, əməliyyat şəraitinə tam nəzarət edir. Ordumuz hər hansı təxribata həmin anda dəqiq cavab verməyə hazırdır.

Bu fikri AZƏRTAC-a sabiq hərbi birlik komandiri, ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov cəbhədə baş verən son hadisələrə münasibət bildirərkən deyib.

Y.Aydəmirov bildirib ki, Azərbaycan Silahlı Qüvvələri iyulun 7-də Ermənistan tərəfindən məqsədyönlü şəkildə yenidən planlaşdırılan təxribatın qarşısını, Alxanlı kəndində həlak olan körpə uşağın və onun nənəsinin qisasını aldı. Ermənistan ordusunun döyüşə hazırlıq vəziyyətinə gətirilən qüvvələrinə, xüsusilə də taborun müdafiə rayonunda yerləşən seçilmiş hədəflərinə dəqiq atəş zərbələri vuruldu.

Sadəcə Ermənistan tərəfi cürət edərək itkilərini boynuna almır. Onlar yalan iftiralar yaymaqla məşğuldurlar. Ermənilər vəziyyəti gərginləşdirmək üçün ehtiyat hissələrini bir neçə istiqamətdə ön xəttə çəkiblər. Həmin bölmələrə də ordumuz tərəfindən güclü atəş zərbələri vuruldu. Düşmən altı nəfərdən az olmayaraq itki verib. Həmin artilleriya sistemləri ilə atəş zamanı düşmənin digər canlı qüvvə və texnikaları da tələfata uğrayıb. Misal üçün, artilleriya bölməsinin bir topunun mərmisinin qəlpələrinin məhvetmə radiusu 50 metrdir. Həmin mərmilərin qəlpələri 50 metr ətrafa səpələnir və orada heç bir canlı qüvvənin sağ qalması mümkün deyil. Onlarda tələfat həddindən artıq çoxdur. Bunu gizlətməyə çalışsalar da, xeyri olmayacaq. Düşmən tərəfi ancaq fotomontajla, yalan videomateriallar yaymaqla məşğuldur. Çünki onlar itkilərini boyunlarına almaq istəmir və vəziyyəti gərginləşdirməkdə davam edirlər.

# Beynəlxalq məhkəmə Alxanlı faciəsini araşdırmalıdır

Qərb ölkələrində bir uşaq hansısa partlayışda həlak olanda, hamı onun üçün şam yandırır və bütün Avropa qaraya bürünür.

Lakin bir müsəlman uşağı işğalçı Ermənistan ordusu tərəfindən öldürülür, kimsə buna reaksiya vermir.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Urmiyanın İran İslam Şurası Məclisindəki (parlamentində) təmsilçisi, deputat Ruhulla Həzrətpur deyib. O bildirib ki, Ermənistan ordusu tərəfindən 2 yaşlı Zəhra Quliyevanın öldürülməsi beynəlxalq cinayətdir və buna dünya ictimaiyyəti göz yummamalıdır.

R.Həzrətpur deyib: "Alxanlı faciəsi insan hüquqlarında ikili standartın ağır nəticəsidir. Mənim fikrimcə, bu məsələ beynəlxalq insan haqları qurumları, xüsusi ilə də İslam ölkələri üçün bir sınaqdır. Beynəlxalq məhkəmələr bu məsələni araşdırıb hüquqi qiymət verməlidir".

# "Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusunun həlak olması barədə məlumat yalandır"



"Facebook" sosial şəbəkəsində "Vətən sağ olsun" adlı istifadəçiyə istinadla Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu Nağıyev Həsən Əli oğlunun 2017-ci il iyulun 2-də Ağdam istiqamətində erməni snayperi tərəfindən vurularaq həlak olması ilə bağlı Ermənistan mətbuatında məlumat yayılıb.

Azərbaycan Respublikası Müdafiə Nazirliyindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər ki, Nağıyev Həsən Əli oğlu həqiqətən Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçib. O, 2017-ci ilin yanvarında ordu sıralarından ehtiyata buraxılıb, hazırda sağdır və Şəmkir rayonunda yaşayır.

"Dəqiqləşdirilməmiş yalan məlumatların sosial şəbəkələrdə yayılması düşmənin maraqlarına xidmət edir və ictimaiyyətdə yanlış fikir formalaşdırmaqla Silahlı Qüvvələrimizin nüfuzuna xələl gətirmək məqsədini daşıyır", - deyə Müdafiə Nazirliyindən bildirilib.

*Ön xətdən reportaj*

# Düşməndən intiqam almağa hər an hazırıq



*Qaranlıq bütün günahları özündə əks etdirən zülmətə, tənhalığa, boşluğa, yoxluğa işarədi. Qaranlıq haqq-ədalətin pozulması, işğalın, əziyyətin, işgəncənin rəmzidi. Qaranlıq iki üzlüdü - ya səhərə açılır, ya da heç vaxt öz səhərinə çatmır. İşıq qaranlığın əksi, həyatın özü və davamıdı. Hər zərrəsi haqqa, ədalətə, sülhə, işıqlı sabaha vəsilədi. İşıq hər zaman qaranlığın qənimidi...*

Bu fikirlər ağlıma təsadüfdən gəlmədi. Işıqlı sabahlar arzusu ilə, qaranlıq gecələri parçalayacaq, işığın, nurun carçısı olacaq oğullarımızla görüşə gedirik. "UAZ" yolun narahatlığına, çala-çuxuruna baxmayaraq orta sürətlə irəliləyir. Zabit Asəf Qurbanovun diqqəti yoldadı. O, sanki hər daşın dibinə belə baxmağa, nə isə tapmağa çalışır. Bəzən gözləri məchul bir nöqtəyə dikilir. Qəlbimdən müqəddəs məkana tez çatmaq keçir. Sevincimin həddi-hüdudu yoxdu. Dünyaya göz açdığım, doğulub boya-başa çatdığım, ruhumun məskəni, doğmalarımın uyuduğu torpaq, aranla dağın qolboyun olduğu, qəlbimin ilahi sonsuzluğuna çevrilən bir məkanda əsgər oğullarımızla görüşməkdən sevincli heç nə ola bilməzdi.

Bu hisslərin təsiri altında, ön xətdə yerləşən bölüyün dayaq məntəqəsinə gəlib çatırıq.

Bölük komandiri Aqşin Rəhimovla, həmçinin tabeliyində olan şəxsi heyətlə görüşürük. Əsgərlərin yüksək əhval-ruhiyyədə olması, gözlərindəki inam dərin mətləblərdən xəbər verir.

Əsgər yataqxanasında olan səliqə-sahman bizdə xoş ovqat yaradır. Səngər boyu torpağa sancılmış "Ən yaxşı silah yaxşı öyrədilmiş əsgərdir", "Şəhid qanı yerdə qalmaz", "Sənin səngərin alınmaz qalandır" və s. kimi şüarlar diqqətimizi çəkir...

İlk söhbətimiz bölük komandiri ilə olur. Öyrənirik ki, baş leytenant Aqşin Rəhimov 1989-cu ildə Qubadlı rayonunun Dilican kəndində anadan olub. 2004-2007-ci illərdə C.Naxçıvanski adına Hərbi Liseydə, 2007-2011-ci illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb.

- Qarabağın düşmən tapdağında inlədiyini düşündükcə ürəyimdən qara qanlar axır, - deyə baş leytenant söhbətə başlayır: - Uşaq vaxtımdan bu peşəyə həvəsim vardı, eyni zamanda doğulduğum torpağın da işğal altında olması mənə rahatlıq vermirdi. Şəhidlərin ruhu, şahidlərin acı xatirələri bizdən tələb edir ki, həmin torpaqları qaytaraq, cinayətkarları cəzalandıraq və bundan sonra şəhid məzarlarını ziyarət edərkən deyək: ruhunuz şad olsun! Biz Qarabağdayıq! Rahat uyuyun!

Diqqətimi göy üzündə bir topa qara bulud cəlb edir. Bir anlıq elə hiss edirəm ki, analarımızın, bacılarımızın göz yaşından əmələ gələn lənətlənmiş qara bulud ruhumu, vücudumu silkələyir, qəlbimi qana döndərir. Zülmət qaranlığın məchulluğundan əmələ gələn güman məni uzaqlara aparır. Mənə elə gəldi ki, ətraf büsbütün qaranlığa qərq olub, qatı zülmət və səssizlikdi hər tərəf. Bura arzuların bitdiyi bir yerdi, bəlkə də dünyanın son nöqtəsidi. Sanki dərin bir boşluğa düşürəm. Məni boşluqdan dartıb çıxardan bir topa qara buluda güc gələn, ətrafı nuruna qərq edən günəşin zərrəcikləri olur. Deməli, hər cür qaranlıqdan çıxış yolu var, əsas məsələ bu istiqamətdə işığı tapmaqdı. O işıq da var... O zərrəciklər deyir ki, Günəşin qarşısını ömürlük kəsə bilmək qara buludun hünəri deyil. İşığa yol açan oğulların, Azərbaycan əsgərinin hesabına qara bulud işıqda əriyib yox olacaq. Nur, işıq tərənnümçüsü olan əsgərlərimiz xalqımızı tezliklə o işığın ruhuna bələyəcək, o işığın nuruna qovuşduracaq.

- Bilirəm, sizin də diqqətinizi qara bulud topası cəlb etdi, - bölük komandiri göy üzünü göstərir. - Elə bil buludlar günəşin qabağını kəsib. Gördüyünüz bulud topası sanki uzun müddətdi düyünlənib qalıb. Elə bil, o səmada həlak olan oğullarımızın analarının göz yaşından yoğrulub həmin bulud. Yəqin buludların arasından süzülüb özünə yol tapan, gedəcəyimiz yola işıq saçan zərrəciklər də diqqətinizdən qaçmayıb. Bu igid oğullarımızın hesabına nurlu gələcəyə bir işarədi. Nur hər zaman qaranlığı öz içində boğmağı bacarıb. Atalar yaxşı deyib: "Hər qaranlıq gecənin işıqlı bir sabahı var". O işıqlı sabaha çıxanda, torpaqlarımızı işğaldan azad edəndə, analar sevinc göz yaşı axıdanda səmadakı qara bulud da əriyib gedəcək. Azərbaycan əsgəri torpaqlarımızı zülmün, zülmətin əsarətindən qurtarmağa qadirdi, Vətənimizin hər yerini nura qərq etmək gücündədi.

- Bəli, ötən ilin aprelində bu oğulların hesabına, Cocuq Mərcanlı da daxil olmaqla, torpaqlarımızın bir hissəsi işığa qərq oldu, - deyən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu İlkin İbrahimov söhbətimizə qoşulur. - Bu hələ başlanğıcdı. O işıq çox uzaqlara hakim olacaq, işğalda olan bütün torpaqlarımız düşməndən təmizlənəcək, köçkünlük həyatı yaşamağa məcbur olan bütün soydaşlarımız ata-baba ocaqlarına qayıdacaq. Yenə də bayram tonqalları çatılacaq, insanların gözlərinə sevinc hakim olacaq, yenə də bərəkətli torpaqlarımız əkilib bar verəcək, güllü-çiçəkli çəmənlərdə sürülərimiz, mal-qaramız otlayacaq...

Əsgərlərdən Xəyal Zülfüqarlı, Rəşad Həbibov və Sənan Əliyev də söhbətin davamı olaraq bildirirlər ki, əsas məqsədimiz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, Qarabağın və ermənilərin zəbt etdikləri bütün bölgələri düşməndən təmizləmək, xalqımıza sakit, təhlükəsiz, işıqlı həyat bəxş etməkdi: "Öncə Vətəndi" deyib Vətənin keşiyində şərəflə dayanmışıq. Yaxşı bilirik ki, torpaqlarımızın qorunması bizdən asılıdır. Qarabağımızı düşmən tapdağından azad etməyə hazırıq.

Yağı düşmən nə qədər təxribat törətməyə cəhd göstərsə də, hər dəfə belə qəhrəman əsgərlərimizin şücaəti sayəsində layiqli olduğu cavabı alacaqdır. Qoy düşmənlərimiz də açıq-aydın dərk etsinlər ki, onlardan hər addımda qisas almağa qadir olan igidlərimiz saysız-hesabsızdır.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Rusiyadan alınan döyüş texnikası və sursatların növbəti hissəsi ölkəmizə gətirilib





*Rusiya istehsalı olan müasir döyüş texnikası, silah, sursat və digər hərbi avadanlıqların Azərbaycana gətirilməsi prosesi davam edir. İki ölkə arasındakı hərbi-texniki əməkdaşlığa dair razılaşmaya əsasən ən yeni döyüş vasitələrinin növbəti hissəsi ölkəmizə çatdırılıb.*

Bakı limanına artilleriya və raket sistemləri üçün gətirilən çoxlu sayda mərmilər, raketlər və digər hərbi-texniki əmlak düşmənin döyüş vasitələrinin, mühəndis-istehkam qurğularının, canlı qüvvəsinin və geniş ərazidə obyektlərinin dəqiq zərbə ilə məhv edilməsi üçün nəzərdə tutulub.

Eşalonlaşdırılan döyüş sursatları cəbhədə yerləşən qoşunların döyüş imkanlarını xeyli gücləndirəcək.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Türkiyənin bir qrup yüksək rütbəli zabit heyəti Azərbaycanda

## Türkiyəli zabitlərdən ibarət nümayəndə heyətinin ölkəmizə səfəri Azərbaycan, Türkiyə və Rusiyanın ehtiyatda olan zabitlər birliyinin yaradılmasına hazırlıq məqsədi daşıyır



*Azərbaycan və Türkiyə hökumətləri arasında hərbi-mülki heyətin sosial və mədəni səfərlərinin təşkilinin təmin olunması ilə bağlı Müdafiə nazirinin əmrinə əsasən, qardaş ölkənin bir qrup zabit heyəti və onların ailə üzvləri Gəncə şəhərində olub.*

Hərbi qulluqçuların, mülki işçilərin və onların ailələrinin qarşılıqlı ziyarətlərinin təşkili çərçivəsində həyata keçirilən səfər iki ölkə arasında mövcud olan qədim dostluğun, əməkdaşlığın genişlənməsi və əlaqələrin möhkəmləndirilməsinə xidmət edir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, proqrama uyğun olaraq qonaqlar ümummilli liderimiz Heydər Əliyev adına parkkompleksdəki Mərkəzdə Ulu Öndərin böyük dövlətçilik fəaliyyəti, həyat yolu haqqında məlumatlar əldə edib, əlaqələrimizin inkişaf etdirilməsində dahi şəxsiyyətin misilsiz xidmətləri diqqətə çatdırılıb.

Qonaqlar Gəncə şəhərinin qədim tarixi, xalqımızın zəngin mədəni irsi, incəsənəti haqqında məlumatlandırılıb, Xan Bağını, Şah Abbas məscidini, Tarix Diyarşünaslıq muzeyini, Nizami Gəncəvinin məqbərəsini və digər yerləri ziyarət edərək mədəniyyətimizlə yaxından tanış olublar.

Göygöl rayonuna gələn qonaqlar Dövlət Təbiət Qoruğunu və Milli Parkı gəzib, Gəncə Qarnizonu Zabitlər Evinin təşkilatçılığı və Xalq artisti Azərinin iştirakı ilə keçirilən konsert proqramında iştirak ediblər.

Türkiyəli qonaqların ölkəmizə səfəri davam edir.

* * *

Türkiyənin Təqaüddə olan Zabitlər Təşkilatının sədri, ehtiyatda olan general-polkovnik Ərdoğan Karakuşun və Türkiyə Müharibə Veteranları İctimai Birliyinin sədri, ehtiyatda olan polkovnik Mehmet Şükrü Tandoğanın rəhbərliyi ilə Azərbaycana gələn veteran zabitlərdən ibarət 6 nəfərlik nümayəndə heyəti Şamaxıda olub. Səfər Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə Birliyinin və Azərbaycan-Əfqanıstan Veteranları İctimai Birliyinin dəvəti ilə reallaşıb.

AZƏRTAC xəbər verir ki, türkiyəli veteran zabitlər əvvəlcə Acıdərədə 1918-ci ildə ermənilərə qarşı döyüşlərdə şəhid olan Osmanlı zabitinin qəbrini və Azərbaycana köməyə gələn və həlak olan 1130 qəhrəman türk əsgərinin şərəfinə ucaldılan abidəni ziyarət ediblər.

Şəhid zabitin məzarı önündə çıxış edən general-polkovnik Ərdoğan Karakuş deyib: "Azərbaycana qarşı hərbi təcavüz bitməyib, bu gün də davam edir. Körpə uşaqlara belə rəhm göstərilmir. Qoy, hər kəs bunu bir daha eşitsin: Türkiyə hər zaman Azərbaycanla birlikdədir, onun yanındadır!"

Sonra Ə.Karakuş və polkovnik Mehmet Şükrü jurnalistlərə müsahibə veriblər.

Səkkiz bölmədən ibarət S.Ə.Şirvani adına Şamaxı Tarix Diyarşünaslıq Muzeyi ilə tanışlıq, burada Şamaxının tarixi ilə bağlı sənədli film türkiyəli qonaqlarda böyük təəssürat yaradıb.

Daha sonra qonaqlar 743-cü ildə inşa edilən, 1918-ci ildə ermənilər tərəfindən yandırılaraq dağıdılan Cümə Məscidində olublar. Bildirilib ki, o vaxt burada məscidə sığınan 1700 nəfər günahsız insan erməni quldur dəstəsi tərəfindən diri-diri yandırılıb. Prezident İlham Əliyevin Sərəncamı ilə ayrılan vəsait hesabına məscid əsaslı təmir edilib, 2013-cü il martın 13-də açılışı olub.

Axşamüstü türkiyəli veteran zabitlər AMEA-nın N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasına gəlib, buradakı elmi tədqiqatlar barədə maraqlanıblar.

Qeyd edək ki, ehtiyatda olan türkiyəli zabitlərdən ibarət nümayəndə heyətinin ölkəmizə səfəri Azərbaycan, Türkiyə və Rusiyanın ehtiyatda olan zabitlər birliyinin yaradılmasına hazırlıq məqsədi daşıyır. Üç ölkə arasında bağlanacaq memorandumun bu ilin payızında mərkəzi qərargah kimi təyin olunan Bakıda imzalanması planlaşdırılıb. Rusiyanın Ehtiyatda olan Zabitlər Birliyinin sədri, ordu generalı Viktor Yermakovun rəhbərliyi ilə nümayəndə heyəti də Azərbaycana səfər edəcək.





Üç ölkənin ehtiyatda olan zabitlər birliyinin yaradılmasında başlıca məqsəd dünyada müharibələrə, terrora, neofaşizmə qarşı çıxmaq və birlikdə mübarizə aparmaqdır. Bu birliyə daha sonra Belarusun, Orta Asiya və Şərqi Avropa ölkələrinin, o cümlədən İran və bir neçə İslam dövlətlərinin müvafiq təşkilatlarının da daxil olması gözlənilir.

* * *

Azərbaycan və Türkiyə hökumətləri arasında hərbi heyətin sosial və mədəni səfərlərinin təşkili ilə bağlı Müdafiə nazirinin əmrinə əsasən ölkəmizdə səfərdə olan qardaş ölkənin bir qrup zabit heyəti və onların ailə üzvləri qədim Şəki şəhərində olublar.

Türkiyəli zabitlər və ailə üzvləri "Yuxarı baş" Dövlət Tarix Memarlıq Qoruğunu, Yuxarı Karvansaray, Tacirlər küçəsi və Narın qala Qala divarları memarlıq abidələrini gəzib, Şəki Xan Sarayı, Şəki Tarix Diyarşünaslıq muzeyi, Şəki Xalq Tətbiqi Sənəti muzeyi ilə tanış olub, eləcə də Qədim Alban məbədi olan Dairəvi məbədə baxıblar.

Zabitlər muzeylərdə toplanmış eksponatlarla tanış olaraq Şəkinin qədim tarixi, xalqımızın zəngin mədəniyyəti, bölgənin adət-ənənələri barədə geniş məlumatlar əldə ediblər. Ekskursiya zamanı Türkiyəli zabitlərlə Gəncə Qarnizonu Zabitlər Evinin təşkilatçılığı ilə Şəki şəhərinə gəzintiyə gəlmiş Azərbaycan Silahlı Qüvvələrinin əsgərlərinin Xan Sarayının ətrafında görüşü təşkil edilib, xatirə şəkili çəkdirilib.

Türkiyəli qonaqların ölkəmizdəki səfəri davam edir.

**"Azərbaycan Ordusu"**

# “Şəhidlər ölməz, Vətən bölünməz!”

## devizi altında vətənpərvərlik tədbiri keçirilib

*Müdafiə Nazirliyi və Pirallahı rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Şəhidlər ölməz, Vətən bölünməz!" devizi altında vətənpərvərlik tədbiri keçirilib.*



Rayon ictimaiyyətinin, şəhid ailələrinin, müharibə veteranlarının və hərbi qulluqçuların iştirak etdiyi tədbir xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların, eləcə də bir neçə gün öncə Ermənistan silahlı bölmələrinin dinc əhaliyə qarşı növbəti təxribatı zamanı həlak olmuş Füzuli rayonu Alxanlı kəndinin sakinləri on səkkiz aylıq Zəhra və onun nənəsinin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Müdafiə Nazirliyinin zabiti Abdulla Qurbani şəhidlik və Vətən sevgisindən, xalqımızın qəhrəmanlıq ənənələrindən, hərbi şöhrət tariximizdən, ordu quruculuğundakı uğur və nailiyyətlərimizdən söhbət açıb. Döyüşlərdə canlarından keçən Vətən övladlarının əbədiyaşarlığından, müharibədə sağlamlıqlarını itirən igidlərimizin, şəhid ailələrinin dövlət səviyyəsində diqqət və qayğı ilə əhatə olunmalarından bəhs edilib.

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivlərinin ifasında vətənpərvərlik mahnıları, hərbi marşlar səsləndirilib.

Millət vəkili, professor Xanhüseyn Kazımlı Müdafiə Nazirliyinin yerli icra hakimiyyəti orqanları və qeyri-hökumət təşkilatları ilə birgə təşkil etdiyi tədbirlərin əhəmiyyətindən danışaraq bir çox tədbirlərdə şəxsən iştirakından böyük qürur hissi keçirdiyini qeyd edib.

Pirallahı rayon İcra Hakimiyyəti başçısının müavini, əslən Şuşadan olan Vəzir Səfixanov bu kimi tədbirlərin ordu ilə xalqın birliyinin daha da möhkəmlənməsinə xidmət etdiyini, gənclərin hərbi vətənpərvərlik tərbiyəsində müstəsna rol oynadığını və Müdafiə Nazirliyi ilə əməkdaşlığın bundan sonra da davam etdiriləcəyini bildirib.

Tədbir keçirilən gün iyirmi yaşı tamam olan Lələtəpə uğrunda döyüşlərin ilk şəhidi Sarvan Mehrəliyevin (qardaşı Namiqlə birlikdə döyüşə atılıb) qısa, lakin mənalı ömür yolu xatırlanıb, onun aprel döyüşləri zamanı göstərdiyi igidliklər nəzərə çatdırılıb.



Şəhidin anası Xatirə xanım Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva ilə görüşünü yada salıb, ölkəmizin başçısından və Müdafiə Nazirliyinin rəhbərliyindən həmişə qayğı gördüyünü deyib.

Əməkdar incəsənət xadimi A.Qurbaninin erməni vandalizminin qurbanı Zəhraya həsr etdiyi elegiya tədbir iştirakçılarında duyğulu anlar yaşatmaqla yanaşı, onların bu nahaq qanın yerdə qalmayacağına, günahsız insanların qisasının alınacağına, torpaqlarımızın tezliklə işğaldan azad ediləcəyinə inamını daha da artırıb.

Tədbirdə beynəlxalq təşkilatlardan Azərbaycanın dinc əhalisinə - uşaqlara, qocalara, qadınlara qarşı dəfələrlə insanlığa sığmayan vəhşiliklər etmiş təcavüzkar Ermənistana qarşı sərt sanksiyalar tətbiq etmələri tələb olunub.

Tədbir "Biz gedirik Qarabağa!" adlı ədəbi-musiqili kompozisiya ilə başa çatıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# “Döyüş növbəsində dayananda çox qürurlandım”

Gənclərdə vətənpərvərlik hissinin formalaşmasında, cəmiyyətə yararlı şəxsiyyət kimi yetişməsində və s. üstün keyfiyyətlərə yiyələnməsində əsgəri xidmətin rolu danılmazdır. Hərbi xidmət dövründə gənclər milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda formalaşır, gələcəyin nümunəvi vətəndaşları kimi yetişirlər. Torpaqlarımızın bir qisminin işğal altında olduğu bir şəraitdə, dövlətinə, millətinə bağlı olan gənclərimiz Vətən qarşısında borcun öhdəsindən uğurla gəlirlər. Ordu həyatının gənclərə aşıladığı keyfiyyətləri onların öz dilindən öyrənmək üçün tərxis olunmağa hazırlaşan əsgərlərlə söhbətləşirəm.

Ön xətdə gizir Rəfail Səmədovla söhbətim zamanı tərxis olunmağa hazırlaşan əsgərlər haqqında dedi:

- Nicat Adıgözəlov bu günsabah ordudan tərxis olunacaq. Nicat xidmətə gəldiyi ilk gündən kollektivdə özünə hörmət qazanıb. Verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirib. Təcrübəli əsgərin vətənpərvərliyi, xidmətə bağlılığı digər əsgər yoldaşlarına da nümunədir.

Nicatın döyüş növbəsində olduğunu öyrənirəm. Onu tanımaq, silah tutan əlini sıxmaq, düşüncələrini qələmə almaq üçün fürsət gəzirəm. Haqqında söz açdığım əsgər döyüş növbəsini digər əsgər yoldaşına təhvil verdikdən sonra onu daha yaxından tanıyıram. Xidmətə Oğuz rayonundan çağırılıb. Əsgər Adıgözəlov ilk öncə xidməti dövründə ona hərbi biliklər öyrədən, vətənpərvərlik hissləri aşılayan, valideyn kimi qayğısına qalan komandirlərinə minnətdarlığını bildirdi.



- Bacarıqlı, cəsur, vətənpərvər döyüşçü kimi yetişməyimdə bölük komandirimiz baş leytenant Elvin Kazımov başda olmaqla bütün komandirlərimə sağ olun deyirəm. Onların zəhməti nəticəsində döyüş bacarıqlarına yiyələnmişəm. Silahımdan həm istifadə etməyi, həm də onun taktiki-texniki xüsusiyyətlərini hər incəliyinə kimi öyrənmişəm.

Əsgəri xidmətin gənclərin həyatında mühüm rola malik olduğunu deyən Nicat, xidməti dövrünün ən yadda qalan günlərindən söhbət açaraq xatirələrindən, hərbi andiçmə günündən danışır:

- Xidmətim dövründə ən yaddaqalan, ən qürurverici günlərimdən biri hərbi andiçmə mərasimi olub. Valideynlərimizin qürurlu baxışları altında bir əlim əsgər yoldaşımın çiynində, bir əlim silahımda Vətənə sədaqət andı içərək təntənəli marşla keçdik. Həmin gün yaddaşıma silinməz hərflərlə həkk olunub. Bundan əlavə ilk dəfə döyüş növbəsinə çıxdığım gün də öz həyəcanı ilə yaddaşımdadır. Həmin gün mənə ən məsuliyyətli vəzifə tapşırılmışdı. Post başçısı tərəfindən təlimatlandırıldıqdan sonra əsgər yoldaşımdan döyüş növbətçiliyini təhvil aldım. İlk dəfə döyüş növbəsində dayananda çox qürurlandım.

Nicata görə, hərbi xidmət əsl həyat məktəbidir. Bu məktəbdə hər kəs vacib keyfiyyətlərə yiyələnir. Həm döyüşçü kimi yetişir, həm də yararlı vətəndaş kimi. "Bütün gənclər bu şərəfli yolu keçməlidirlər. Bizim ən birinci borcumuz bacarıqlı, cəsur əsgər kimi yetişmək və torpaqlarımızı düşmən işğalından azad etməyə hər an hazır olmaqdır".

Təcrübəli əsgər hesab edir ki, hərbi xidmət həm də bir kişilik məktəbidir. "Bu mərhələdə fiziki və mənəvi-psixoloji cəhətdən formalaşırıq, həyatın çətinlikləri ilə ayaqlaşmağı öyrənirik. Hərbi xidmət Vətənə bağlılıq, vətənpərvərlik hisslər aşılamaqla hərbi silahlardan, texnikadan istifadə etməyi bacaran döyüşçü kimi yetişirik. Vətənə sədaqət, dövlətə bağlılıq, düşmənə nifrət hisslərinə də məhz ordu mühitində alışırıq."

Sonda əsgər Nicat Adıgözəlov Ali Baş Komandanımız tərəfindən döyüş əmri veriləni kimi əsgər yoldaşları ilə çiyinçiyinə döyüşə atılmağa hər an hazır olduğunu əminliklə bildirdi...

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

# Beynəlxalq Türk Akademiyası azərbaycanlı mülki əhalinin ermənilər tərəfindən qətlə yetirilməsini pisləyib

*Beynəlxalq Türk Akademiyasının (TWESCO) prezidenti Darxan Kıdırali Ermənistan silahlı qüvvələrinin Füzuli rayonunun Alxanlı kəndində törətdiyi hərbi təxribatla əlaqədar bəyanatla çıxış edib.*

Bəyanatda deyilir: "Dağlıq Qarabağ münaqişəsinin hələ də həllini tapmaması, xüsusilə də, münaqişə çərçivəsində ağır silahlarla mülki əhaliyə qarşı hücumlar edilməsi, beynəlxalq humanitar hüquqa və insani dəyərlərə ziddir. Ona görə də, dünya ictimaiyyəti 2 yaşlı günahsız körpənin və yaşlı qadının öldürülməsinə səssiz qalmamalıdır. Biz münaqişənin ölkələrin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində, beynəlxalq hüququn əsas prinsipləri, BMT-nin qəbul etdiyi qətnamələr əsasında tezliklə həll edilməsini dəstəkləyirik. Mülki əhaliyə qarşı hücumları qətiyyətlə pisləyir, xain hücumda həyatlarını itirənlərə Allahdan rəhmət, yaralılara şəfa diləyirik".

**AZƏRTAC**

# "Biz gedirik Qarabağa!"

*...Xəzər elə sakitdi ki. Bir dalğa digərinin yedəkçisidi. Biri digərini dartıb arxa-sınca aparan dalğalar sahilə sığal çəkir. Bu ünsiyyət, bu doğma təmas, bu bənzərsiz sevgi, bu ecazkar mənzərə görənə, duyana könül xoşluğu verir. Xəzri ağacların budaqlarını, budaqların yarpaqlarını incəliklə, həzinliklə tərpətməkdədi. Ötən ilin yayında Lələtəpədə yaşadığım duyğuların eynini yaşayıram: Yel əsə, əsə-əsə tələsə, dönməz səsə qarışa. O dönməz səs Vətənin səsidi: Qələbə! Xəzri gələnləri tədbirə tələsdirir...*



Tədbir az sonra başlayacaq. Həzin musiqi eşidilir. Qürurla, bir qədər də kövrəkliklə aprel döyüşlərindən danışır sanki. "Azərbaycan əsgərinin qələbəsi ruhumuzun qələbəsidi", - deyir. "O qələbə Böyük Qələbənin başlanğıcıdı...". Bu remarka Müdafiə Nazirliyi və Pirallahı rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən tədbirin ("Şəhidlər ölməz, Vətən bölünməz") uvertürasıdı - düşünürəm.

Əməkdar incəsənət xadimi Abdulla Qurbaninin ssenarisi və rejissorluğuyla keçirilən tədbir toplaşanlara bir həqiqəti böyük səxavətlə yenidən yaşadır: Şəhid ömrü ölümsüz ömürdü. Şəhid ömrü bəşəriyyətin cığırdaşıdı...

Belə tədbirlərdə başlıca mətləbi məntiqli, düşündürücü rəmzlər deyir: zalda sağ tərəfdə zabitlərdi, sol tərəfdə əsgərlər. "Zabitlər, əsgərlər ordunu təmsil edir, toplaşanlar xalqı" - düşünürəm. Bu, ordu ilə xalqın birliyidi, ordu xalqı qoruyur qənaətidi. Bu qənaət ürəyimin titrəyişinə qarışır...



Tədbir aprel döyüşlərində şəhid olan Sarvan Mehrəliyevin anım gününə həsr olunsa da, mahiyyəti şəhidliyə ehtiramdı - şəhidlər ürəklərdə yaşayır...

Sarvan da döyüşürdü, qardaşı Namiq də...

Sarvan şəhid oldu, Namiq qazi. Sülh danışıqları baş tutmasa, torpaqlarımızı işğaldan döyüşlə azad edəcəyik. Onda həm öz əvəzindən, həm də qardaşı Sarvanın əvəzindən döyüşmək üçün Namiq də döyüşənlərin sırasına can atacaq...

Aparıcı (Abdulla Qurbani) döyüşlərdən danışır, o döyüşləri toplaşanlara misra-misra yenidən yaşadır. Yenidən yaşanılan anlar yaxın vaxtlarda yaşanılacaq anların, illərdi gözlədiyimiz möhtəşəm ovqatın harayçısıdı sanki. Hər kəlmədə Vətən var, qətiyyət var, qətiyyətə söykənən inam var, qələbə əzmi var.

Şəhidlərin ruhu ruhumuzun can ortağıdı; Vətənə xitabən oxunan "Vətən, sənin şəhidlərin" mahnısının mahiyyəti kövrəkliyi üstələyir:

*Qarabağdan nigarandı,*
*Vətən, sənin şəhidlərin!..*

Belə tədbirlər Qarabağı nigarançılıqdan qurtaracaq ordumuza inamın dönməz zəmanətidi...

Sarvan şəhid olanda cibində bir məktub varmış. Döyüş ərəfəsində yazıb. O məktubun məzmunu Azərbaycan əsgərinin mənəvi dünyasının söz təsdiqidi; Vətən sevgisinə sığınan bir sevgi serenadasıdı bu məktub:

"...Bəlkə səndən də gözəl qız var, mən səni sevdim. Bəlkə səndən də ağıllı qız var, mən səni sevdim. İndi döyüş əmri verildi. Döyüşə gedirəm. Şəhid olsam, köks ötürüb "Mən də səni sevirəm" pıçıldasan ruhum şad olar..."...

Necə kövrəlməyəsən? Belə duyğusal məktub səni necə kövrəltməyə bilər? Necə qürurlanmayasan? - əsgər döyüşə sevgisiylə gedir. Vətən sevgisidi bu, sevdiyi Vətəndə sevdiyi qıza etibardı, sədaqətdi. Budur, Azərbaycan əsgərinin mənəvi dünyası! Budur, Azərbaycan əsgərinin milli mentalitetimizə ehtiramı - zamanında sevdiyi qıza deyə bilmədiyini gərgin anlarda da unutmur. O qız kimdi - bəlkə də bilən yoxdu. Onu bilirəm ki, köks ötürmək nədi, göz yaşları o qızın yanağında közə dönüb.

Aparıcı məktubun mətnini səsləndirəndə kiminsə hıçqırığı eşidilir. Kövrəklikdən üzülməyən, üzülə bilməyən baxışlar insafa gəlir - o səmtə yönəlmir...

Nə yaxşı musiqi var. Bu kövrək məqamı unutdurmağa qadir olan musiqi səslənir: "Lələtəpə fatehləri". Bu duyğusal bəstə şəhidlərin ruhunu da sıramıza gətirir; Abdulla Qurbaninin sözlərinə yazılmış odanı dinləyə-dinləyə düşünür, düşünə-düşünə dinləyirik. Odanın ecazkarlığında Lələtəpədə dalğalanan bayrağımızın qürurunu görürük, o qüruru qürurumuza üzərlik bilirik. Lələtəpənin sağından-solundan keçən yollara düşmək keçir könlümüzdən...

...Ermənilər iyulun 4-də Alxanlıda faciə törətdi. Mərmi qəlpəsi on səkkiz aylıq Zəhranın ömrünü əlindən aldı. Aparıcı bu faciəni xatırladır, Zəhraya həsr etdiyi şeiri səsləndirir, "Qəzəbim ox kimi düşmən bağrına, bayrağım Şuşaya sancılacaqdır!" - inamı ürək-ürək gəzişir.

Ana südündən doymadan dünyadan gedən Zəhra, Alxanlının göylərində dolaşan qara buludların nə olduğunu dərk etməyən Zəhra, səngərlərdə dayanan, döyüş növbətçiliyi aparan əsgərləri tanımadan hamısına bacı olan Zəhra, bu yaşda bu biçim ölümüylə beynəlxalq təşkilatların rəsmilərinin də ürəyini tərpədən Zəhra, adı da, ölümü də yaddaşlara (tarixə!) yazılan Zəhra, müharibənin nə olduğunu dərk edə bilmədən müharibənin qurbanı oldun - pıçıldayıram...

Aparıcının o faciəni xatırlatması bu neçə gündə yaşadıqlarını toplaşanlara daha kövrəkliklə yenidən yaşadır. Təəssüfüm ipə-sapa yatmır, heysiyyətim ürəyimi tarıma çəkir. "Hamı bu təəssüfün könüllü əsiridi..." - düşünürəm. Ürəyimdən keçir ki, kaş bu anlarda "Qalmaz belə, qalmaz dünya" mahnısı səslənəydi; "Vətən anadır" mahnısı səslənir. "Zəhra yaralandığı, son nəfəsini çəkdiyi anlarda "Ana!" deyərdi, ruhu "Ana Vətən" deyir" - düşünürəm. Düşüncələrimin kövrəkliyində eşitdiyim "Can, ay bala!" kəlməsini ağrıyan, ağrıyacaq ağrıya ana nəfəsiylə gələn məlhəm bilirəm. Xalq şairi Məmməd Arazın bir misrası yetir hoyuma: "...ağlama..."...

Sahil Şirinov Bayraqtəpə uğrunda gedən döyüşlərdə şəhid olub. Qəbələdəniydi. Bu tədbirdə onun anası da iştirak edir. Ana oğlunun ətrini əsgərlərdən almağa gəlib. Döyüşlərdə şəhid olanları (Sarvanı da!) oğlunun ruh qardaşı bilir. Baxışları Sarvan Mehrəliyevin səhnədən baxan portret-baxışından, yanar məşəldən üzülmür. İştirakçıların sayı qədər məşəl alovlandığını duyurmu görən? - hər ürək özü boyda bir məşələ dönüb. Ananın göz yaşları kirpiklərində donur. "Şəhidlərə bu ehtiram kirpiklərimizi nəmlənməyə qoymaz..." - düşünür yəqin. Ana gözucu əsgərlərə baxır. Bu baxışların doğmalığından "Hamısı oğlumdu..." - mətləbi oxunur. Bilmirəm, o ananın əllərindən öpüm, yoxsa o ananın oğul bildiyi əsgərləri bağrıma basım; ananı da, əsgərləri də hamı kimi mən də əzizim bilirəm...

"Bayraqtəpə qartalları" mahnısı səslənir. Ana bu səslənməni oğluna ad olan ehtiram bilir.



Misraların musiqi, musiqinin söz yükü ürəkləri coşdurur. Mahnının aşıladığı fikir anaya kövrək bir təsəlli olur deyəsən. İfanın gözəlliyi onun da könlünü tellləndirir.

"Qarabağ şikəstəsi" səslənir. Qarabağın şikəstəsi şikəstəliyə üsyandı sanki; "Qarabağ şikəstəsi"ni inam, sevgi, döyüş, qələbə ruhu kimi dinləyirik. Sonluq salonu ləngərləndirir - xanəndə sonda "ölürəm" demir, Qarabağa xitabən "gəlirəm" deyir. Son kəlmə hamını bir ovqata kökləyir. Qələbə ovqatıdı bu. İştirakçıların sayı qədər "Gəlirik!" - kəlməsi eşidilir...

"Gəl, oğlum!" mahnısı Sarvansızlığın, Zəhrasızlığın (Sarvanların, Zəhraların) ağrılarını bir ürək tutumunca "yumşaldır". Mahnı Dədə öyüdüdü elə bil, Dədə Qorqud nəsihətidi sanki - hər kəlmə dinləyəni Vətənə, torpağa kökləyir: "Vətəninə göz dikəni əz, oğlum! Tarixini şərəf ilə yaz, oğlum!". Bu öyüdü əsgərlərə ünvanlanmış Vətən sözü bilirik: tarixini şərəf ilə yaz, əsgər oğlum! Bu öyüd torpaqlarımızı işğaldan azad et kimi anlaşılır. Bu müraciətə əsgərlər də qoşulur, eyni kəlmələri onlar da ifa edir. Ordu ilə xalqın birliyi budur! Ordu ilə xalqın vəhdəti budur!..

...Aparıcının son (və gözlənilən!) ricətlərindən biri salonu dalğalandırır: güllələr yaralayan torpaqda güllər bitsin! Bu istək qələbə deməkdi; qələbə işğalın sonudu, işğalın sonu güllərin boy atmasıdı, görünməsidi, ətrini çölə-düzə səpələməsidi. Bu istək məmləkətimizin istəyidi. Azərbaycan əsgəri bu istəyi yaxın vaxtlarda gerçəkləşdirəcək!..

Mahnının müşayiəti ilə salona Azərbaycan bayrağı gətirilir...

Azərbaycanımızın Dövlət bayrağını hamı ayaq üstə qarşılayır. Bu ehtiram qürurun qüruruna dönür...

Tədbirin mahiyyəti təsdiqləyir ki, şəhidlər ölümsüz ömür yaşayır; aprel döyüşlərində şəhid olan Sarvan Mehrəliyevin ölümsüz ömrünə ehtiram tədbirində Pirallahı rayon İcra Hakimiyyəti başçısının müavini Vəzir Səfixanov belə tədbirlərin ordu ilə xalqın birliyini möhkəmləndirdiyindən danışır, çıxışını bir mətləblə bitirir: Ali Baş Komandanın istənilən əmrinə pirallahılılar da hazırdı...

Millət vəkili Xanhüseyn Kazımlı belə tədbirlərin yeniyetmələrin, gənclərin vətənpərvərlik tərbiyəsinin formalaşmasında gərəkliyini bildirir...

H.Aslanov adına Mərkəzi Zabitlər Evinin solistlərinin ifasında səslənən digər mahnılar da tədbirin mahiyyətinin açılmasına xidmət edir...

...Xəzərin dalğaları bayaqkı kimi sakit deyil - coşmaqdadı. Bu coşqu bizi şəhidlərin ruhuna göz aydınlığı verəcəyimiz günə tələsdirir...

Xəzri ağacların budaqlarını, budaqların yarpaqlarını tərpətməkdədi. Əsən yellər əsə-əsə tələsəcək, dönməz səsə qarışacaq. Bu dönməz səs Vətənin səsidi: Qələbə!..

...Tədbirin "Biz gedirik Qarabağa!" kompozisiyası ilə yekunlaşmasını da rəmz bilirəm. Bu rəmz Vətənin əmrinin yerinə yetiriləcəyi inamıdı...

Hamı "Şuşa!", "Laçın!", "Kəlbəcər!", "Ağdam!", "Füzuli!", "Cəbrayıl!", "Qubadlı!", "Zəngilan!" - deyir...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Əsgərlərlə görüş

*Bu yaxınlarda "Azərbaycan Ordusu" qəzetinin müxbirləri cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsinin ön xətdəki bölmələrindən birində əsgərlərlə görüş keçirdi.*



Çıxış edən bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini kapitan Kənan Nəsirov "Azərbaycan Ordusu" qəzetinin əməkdaşlarını döyüşçülər adından salamladı və bu görüşün təşkilinə görə minnətdarlığını bildirərək dedi:

- "Azərbaycan Ordusu" qəzetini müntəzəm oxuyuruq, ölkəmizdə və dünyada baş verən ən son xəbərlərdən, idman sahəsində olan yeniliklərdən, idmançılarımızın dünya arenalarında qazandığı nailiyyətlərdən doğma qəzetimiz vasitəsilə xəbər tuturuq. Tarixi və vətənpərvərlik mövzusunda dərc olunan yazılar, ön xətdən reportajlar, əsgər yaradıcılığını əks etdirən rubrikalar, nümunəvi xidmət edən əsgərlər, müasir hərbi texnikalar və silahlar haqqında olan yazılar maraqla qarşılanır. Belə yazılar əsgərlərin mənəvi-psixoloji hazırlığının yüksəldilməsində böyük rol oynayır və onların dünyagörüşlərini də artırır.

Sonra oxucularla həmsöhbət olan həmkarım "Əziz oxucular, hər zaman çalışırıq ki, qəzetdə sizlərin maraq dairəsini əhatə edən yazılar dərc edək. Bunun üçün də bu görüşdə sizlərin fikrini bilmək olduqca vacibdir. Qəzetdə hansı rubrikalarda daha çox yazılar görmək istədiyinizi və təkliflərinizi eşitmək istərdik", - deyərək əsgərlərin fikirlərini dinlədi.

İlk olaraq Tovuz rayonundan hərbi xidmətə çağırılmış İlkin Əhmədov sözə başlayır:

- Əvvəlcə bütün əsgər yoldaşlarım adından sizə çox sağ olun deyirəm ki, tez-tez görüşümüzə gəlirsiniz. Qəzetdə dərc olunan bütün yazıları maraqla oxuyuruq. Silah və texnikalara böyük marağım olduğu üçün hərbi yeniliklər, müasir silahlar, döyüş maşınları haqqında olan yazıları daha çox oxuyuram. "Əsgər tribunası"nda silahdaşlarımın məktublarını və "Nümunəvi xidmət" rubrikası ilə xidmətdə fərqlənən yoldaşlarım haqqında yazıları oxuyuram. Onlar kimi layiqli xidmət etməyə çalışıram.

Növbəti çıxışçı hərbi xidmətə Zaqatala rayonundan çağırılan əsgər Mehman Əliyevdir. O isə idman həvəskarıdır. Qəzetdən ölkəmizin idman yeniliklərini izlədiyini deyir.

- Xidmət etdiyimiz səngərlərdə bizimlə görüşə gəlməyiniz, düşüncələrimizi qələmə almağınız bizi çox sevindirir. İdmana böyük marağım var. Ona görə də qəzetdə idman yarışları haqqında olan yazılar daha çox diqqətimi çəkir. Mütəmadi olaraq Silahlı Qüvvələrimizdə keçirilən idman yarışları, yarışların qalibləri haqqında yazıları oxuyuram.

Hərbi xidmətə Goranboy rayonundan çağırılan əsgər Sərxan Xanələkbərov da fikirlərini bölüşür:

- "Ordu və cəmiyyət" rubrikasından olan yazıları hamımız maraqla oxuyuruq. Xalqımızın bizə olan güvəncini, inamını, xoş sözlərini oxuduqca əhval-ruhiyyəmiz daha da yüksəlir. Bir daha əmin oluruq ki, xalqımız bizə inanır.

Əsgər Fərid İsayev (Ağdaş rayonu) də fürsətdən yararlanıb deyir:

- Maraqlı, oxunaqlı yazılar dərc etdiyiniz üçün qəzetin hazırlanmasında əməyi olan bütün kollektivə təşəkkürümü bildirirəm. Ön xətdən olan reportajları maraqla oxuyuram. Həmçinin əsgər məktublarını da həvəslə qarşılayırıq.

Görüşün sonunda hərbi jurnalist baş leytenant Məhəmməd Nəsirli öz təklif və fikirlərini bölüşdüyünə görə əsgərlərə redaksiyanın rəhbərliyi adından minnətdarlığını bildirdi. Xidmətlərində məsuliyyətli, mərd və mübariz olmağı, Vətən keşiyində möhkəm dayanmağı tövsiyə etdi.

Bir gün də "Azərbaycan Ordusu" qəzetində qələbə yazılarını dərc etmək arzusu ilə əsgərlərlə sağollaşdıq.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

*Hərbi ənənələr, yeniliklər*

# Unikal sualtı hərbi robot

Rusiyanın birləşmiş cihazqayırma korporasiyası tərəfindən robotlaşdırılmış radioelektron mübarizə vasitəsi - suyun dərinliyində hərəkət etmək üçün orientir funksiyalı sualtı "Qlayder-T" aparatı yaradılıb. "Ordu-2015" beynəlxalq hərbi-texniki agentliyinin məlumatına görə, müasir sualtı aparat gəmi növlərini səsinə görə müəyyənləşdirməyə, radioelektron mübarizə məsələlərini həll etməyə, yalançı hədəfləri təqlid etməyə, düşmənin hidrolokatorlarının və hidroakustik qurğularının işinə mane yaratmağa qadir olacaq. Verilən məlumata görə, "Qlayder-T" aparatı avtonom rejimdə 180 gün işləyə və hər hansı şəxsin köməyi olmadan özü sərbəst şəkildə marşrutunu seçə bilər.



Sifarişçinin arzusu ilə aparat üzərində müxtəlif cihazlar quraşdırıla bilər. Bu müxtəlif ölçü aparatları, göstəricilər və sensorlardır. Bundan başqa "Qlayder-T" aparatı müəyyən akvatoriyada keşik çəkməyə, suyun çirklənmə dərəcəsini təyin etmək üçün su nümunələri götürməyə, obyektlərin fotoşəklini çəkməyə, informasiyaları toplayaraq modem, radio və rabitə peyki vasitəsilə hesablayıcı texnikaya ötürməyə qadirdir.

"Qlayder" "Kompas" konstruktor bürosunda dəniz suyuna və neftə davamlı olan yüngül materialdan hazırlanıb. Aparat innovasiya mühərrikinə malikdir. Bu da aparatı müasir aşkaretmə vasitələri üçün görünməz edir.

"Qlayder-T" akvatoriyalarda müxtəlif iqlim şəraitində tədqiqat işlərini aparmaq üçün nəzərdə tutulub. O suda hərəkət edərkən komanda üzrə istiqamətini dəyişdirə bilər. Üç litrlik faydalı yüklə suyun 100 metr dərinliyində saniyədə 0,25 metr sürətlə hərəkət etmək imkanına malikdir. Habarit ölçüsü 1,5x1,5x0,3 m, gövdəsinin diametri isə 200 mm-dir. Aparatın marşrut üzrə hərəkəti inersiya idarəetmə sistemi əsasında həyata keçirilir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Kiyevdə orta məktəb ərazisində İkinci Dünya müharibəsinə aid mina tapılıb



Ukraynanın paytaxtı Kiyevdə orta məktəblərin birinin ərazisində İkinci Dünya müharibəsinə aid MM-81 minası tapılıb.

Kiyevin Solomenski rayonu ərazisindəki orta məktəbinin həyətində tapılan mina zərərsizləşdirilib. Mina məktəb ərazisində qazma işləri aparılarkən aşkarlanıb.

Qeyd edək ki, son 6 ay ərzində Kiyevdə İkinci Dünya müharibəsinə aid olan 514 partlayıcı silah-sursat aşkar edilib.

### Missisipi ştatında hərbi təyyarənin qəzaya uğraması nəticəsində ölənlərin sayı 16-ya çatıb



ABŞ-ın Missisipi ştatında C-130 tipli hərbi nəqliyyat təyyarəsinin qəzaya uğraması nəticəsində ölənlərin sayı 16-ya çatıb.

Bu barədə NBC telekanalı məlumat yayıb.

Təyyarə soya əkini sahəsinə düşüb.

Qeyd edək ki, bundan öncə təyyarədə 8 nəfərin olduğu, onlardan 5-nin cəsədinin tapıldığı bildirilirdi.

### Misirdə “İslam dövləti”nin altı tərəfdarı məhv edilib



Misir polisi "İslam dövləti" (İŞİD) terrorçu təşkilatının altı tərəfdarını məhv edib. Misir Daxili İşlər Nazirliyinin bəyanatında deyilir ki, Asyut əyalətinin Dervut rayonunda kimsəsiz evlərdən birində gizlənən cinayətkarlar ölkənin cənub əyalətlərində silsilə terror aktları törətməyə hazırlaşırmışlar.

Sənəddə bildirilir ki, əməliyyat zamanı silahlı müqavimət göstərən terrorçular məhv edilib. Hadisə yerində avtomatik silahlar, döyüş sursatı, hərbi formalar, İŞİD ideologiyasını təbliğ edən mətbu materiallar aşkar edilib.

### Dünyanın ən uzun dəniz körpüsünün tikintisi başa çatıb



Honkonq, Cuhay və Makaonu birləşdirən dünyanın ən uzun dəniz körpüsünün əsas konstruksiyasının tikintisi başa çatıb.

Körpünün tikintisi 7 ilə tamamlanıb və artıq 2017-ci ilin sonunda istifadəyə verilməsi planlaşdırılır.

Təxminən 7 kilometrlik yeraltı tunellə birlikdə körpünün uzunluğu 55 kilometrdən çoxdur. Onun tikintisində 420 min ton polad işlədilib.

### Ukraynada 16 ölkənin qatıldığı genişmiqyaslı hərbi təlimlərə başlanılıb



Ukraynada 16 ölkənin 3 mindən çox hərbçisinin qatıldığı "Sea Breeze-2017" genişmiqyaslı birgə hərbi təlimlərinə başlanılıb.

Bu barədə mətbuat konfransında Ukraynanın Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Dimitri Quçulyak deyib. Onun sözlərinə görə, dəniz hərbi təliminin məqsədi krizis regionunun təhlükəsizliyini qorumaqdır.

"Hərbi təlimlərdə 31 gəmi, qayıq, 29 təyyarə və helikopter, 3 mindən çox şəxsi heyət iştirak edir. Hərbi təlimlər Odessa və Nikolayev regionunda keçirilir", - deyə Quçulyak əlavə edib. O qeyd edib ki, hərbi təlimlər zamanı ordunun NATO standartlarına uyğunluğu yoxlanılacaq.

Təlimlər iyulun 23-nə kimi davam edəcək.

**AZƏRTAC-ın materialları əsasında**

*Könlüm şeir istəyir*

# Ömür Vətən üçündü

*Könülə yatan, düşündürən, düşüncələri bir daha Vətənə, torpağa kökləməyə qadir olan şeir, əlbəttə ki, yaxşı şeirdi. Əsgərin düşüncələrinə çırpınan mətləbləri şeirləşdirənlərin yaradıcılığı həmişə diqqətlə izlənilib, bu gün də izlənilir. Hər yazının (şeirin) yerinə yetirməli funksiyaları var. Şeirdən Vətən qoxusu gəlirsə, şeir misra-misra Vətən sevgisinin nuruna dönürsə, belə şeirlərə necə biganə qala bilərsən?*

Ədəbiyyatın vəzifələrindən biri də dövlətçiliyin təminatçısı olan ordunun gücünü, qüdrətini sizə gətirməkdir. Bu, əslində, vətənpərvərlikdir - ədəbiyyatın başlıca mənəvi funksiyalarından birinin yerinə yetirilməsidir.

Aylarını, illərini Vətən üçün yaşayanların şeirləri oxuyanı bu ülvi, bu müqəddəs duyğularla yaşadır. Bu səbəbdən Vətənə ad olan şeirləri daha duyğusallıqla, daha dərin istəklərlə oxuyuruq...



Əsgər Vətənin siperidi.

Vətənə sipər oğulların Vətən sevgisi öz əksini poeziyada da tapır. Oxuyun, duyğularınız yenə Vətənlə döyünsün. Həm də misra-misra döyünsün.

**"Azərbaycan Ordusu"**

## Qarabağ

Bu nə dövran, nə zamandı, desənə,
Zəbt ediblər solu, sağı, Qarabağ?..
Gör kimlərə yuva qurdun qoynunda,
Kimlər olub sənə yağı, Qarabağ?..

Beyinlər fikirli, ürəklər xəstə,
Gözlər yolda qalıb, qulaqlar səsdə;
Oxuya bilmirik "Segah", "Şikəstə",
Olmusan dillərdə ağı, Qarabağ.

Hər günün-gündüzün toy-büsat idi,
Qoynunda hər saat xoş həyat idi;
Səslə bu milləti, gəl, oyat indi,
Salaq yada ötən çağı, Qarabağ.

Tək qalıb darıxıb xarı-bülbülün,
Əsirdir dağ-dərən, çəmənin, çölün;
Oldun bu millətin, oldun bu elin,
Sinəyə çəkilən dağı, Qarabağ.

Cahana bəllidir şanın, şöhrətin,
De, nəynən ölçülər qədrin-qiymətin?..
Az qalıbdır, lap tezliklə millətin,
Azad edər bu torpağı, Qarabağ!

**Vüsal OĞUZ**

## Mənim şeirlərim Qarabağlıdır

Daha sözlərimdə ləzzət gəzməyin,
Daha sözlərimin tamı da yoxdu.
İndi dadlı yemək hər evdə bişmir,
İndi dadlı söz də hamıda yoxdu...

Nə gəzir gül ətri, çiçək qoxusu,
Özün bil, istərsən oxuma daha...
Sözdən dəstə tutur baxma çoxusu,
Bir ləçək də girmir yuxuma daha.

Sözləri nəzərə, gözə tez gəlir,
Qəlb döyüntüsünü duyan kəslərin...
Sizin ağlınıza təzə söz gəlir,
Mənim qulağıma güllə səsləri...

O... "iyirmi faiz" nə boydadırsa,
Bu xalqın o boyda davası çatmır!..
Biz dağa qaçırıq hava almağa,
Şuşada dağların havası çatmır!..

Əli çənəsində qalan şairə
Yurdunun tənəsi, gileyi gəlsin!..
Torpağı işğalda olan şairin
Gərək sözlərindən qan iyi gəlsin!..

İndi təbim belə xoşuma gəlməz,
İndi misralarım belə, zəlildi...
Mənim şeirlərim yeriyə bilməz,
Hamısı "ikinci qrup əlil"di...

Tək adam adamla yaşıd olmurmuş,
Eyni yaşdakılar gör nə qədərdi;
Ay mən yaşdakılar, bir dövrdənik
Bizimlə yaşıtdı Xocalı dərdi...

Daralan ürəyin darvazasına
Hələ də əl boyda qara bağlıdı...
Oxucum, bilmirəm, sən haralısan,
Mənim şeirlərim Qarabağlıdı!..

**Ruslan Dost ƏLİ**

## Şəhid nəğməsi

Bir bulaqdım - durnagözlü
Qapadılar gözlərimi.
Bir ozandım - sazlı-sözlü,
Deyəmmədim sözlərimi.

Bir rəssamdım - könlüm təşnə
Həyat özü şah əsərim.
Gözəlliyin əzəl başdan
yaranmışdım mən əsiri.

Bir insandım - qəlbi həssas,
Duyğuları incə, zərif.
Bir pöhrəydim - ümid dolu,
Yaşamadım bar gətirib.

Pərvanəydim -
Od - Vətənim!
Gəzəcəkdim diyar-diyar...
Bu ölümə mən nə deyim!

Bir oğuldum - anda sadiq
Ana yurdun qucağında
əsgər kimi döyüşərək
Ölümü şərəf bilmişəm.
Mən torpağa deyil, qardaş,
Ürəklərə gömülmüşəm!
Ürəklərə gömülmüşəm!

**Xaqani QAYIBLI**

## Ay Şuşam

Mən sənsiz heç kiməm, gəzən ölüyəm,
Nə olsun ürəyim atır, ay Şuşam.
Bəlkə də ögeyəm, onunçün sənə,
Bu gün tək xəyalım çatır, ay Şuşam...

Həsrət var çölündə-düzündə sənin,
Məntək darıxırsan özün də, sənin...
Qoyma səs salsınlar üstündə sənin,
Bu yerdə Natəvan yatır, ay Şuşam.

Bizim dərdimizdən dərdsiz nə anlar,
Niyə əlçatmazdı bizim olanlar?!.
Cıdır düzümüzdə bitən tikanlar,
Mənim ürəyimə batır, ay Şuşam...

**Orxan BEHBUD**

## Ömür Vətən üçündü

Azərbaycanın əsgəri,
Sən Vətənə bir incisən.
Vətən sənə oğul deyir,
Məmləkətin sevincisən.

Ölümləri öldürənlər,
Şəhidlər qardaşdı bizə.
Sənə qardaş olan səngər
Həm də ki, sirdaşdı bizə.

Qazanacağın qələbə,
Sevindirəcək bizləri.
Vətən üçün ömür edənin
Heç vaxt silinməz izləri.

**Gülövşə TAĞIYEVA**

# İdman

## İdmançılarımız Gürcüstanda keçirilən beynəlxalq turnirdə üç gümüş medal qazanıblar



Gürcüstanın Svanetiya bölgəsinin Lentexi ərazisində Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasının (FAİREX) idmançılarının da iştirak etdiyi idman dırmanması üzrə beynəlxalq turnir keçirilib.

Sürət və çətinlik növü üzrə təşkil olunan yarışda ölkəmizi məşqçi Çingiz Tağızadənin rəhbərlik etdiyi yığmamızın üzvləri təmsil ediblər.

Təmsilçilərimiz uğurla çıxış edərək üç gümüş medal qazanıblar. Komanda üzvlərimizdən Gəray Əliyev sürət və çətinlik, Fuad Abdullayev isə yalnız çətinlik növü üzrə yarışda ikinci olublar.

## Boksçumuz peşəkar rinqdə növbəti qələbəsini qazanıb



Azərbaycanın və "Qəbələ" idman klubunun boksçusu Zamiq Atakişiyev peşəkar rinqdə növbəti döyüşünü keçirib.

31 yaşlı idmançımızın peşəkarlar arasındakı 4-cü sınağı Rusiyanın Maqnitoqorsk şəhərində baş tutub. O, İvan Romazan adına İdman sarayında təşkil olunan boks gecəsində qüvvəsini sınayıb. Ağır çəki kateqoriyasında çıxış edən Z.Atakişiyev reytinq döyüşündə Latviya təmsilçisi Edqars Kalnars ilə qarşılaşıb. Boksçumuz emosional və baxımlı alınan döyüşün ilk saniyələrindən üstünlüyü ələ alıb. Artıq 1-ci raundda onun zərbəsindən sonra rəqib rinqə yıxılsa da, özündə güc taparaq ayağa qalxıb. Lakin Zamiqin güclü zərbələri latviyalı idmançının döyüşü başa çatdırmasına imkan verməyib. İkinci raundda təmsilçimiz texniki nokautla qələbə qazanıb. Beləliklə, 6 raund davam etməli olan görüş 2-ci hissədə başa çatıb.

Xatırladaq ki, bunadək peşəkar rinqdə 3 döyüş keçirən Z.Atakişiyev bütün görüşlərdə qələbə qazanıb.

## Stolüstü tennis üzrə Azərbaycan birinciliyi başa çatıb



Gənclər və İdman Nazirliyinin və Stolüstü Tennis Federasiyasının birgə təşkilatçılığı ilə stolüstü tennis üzrə Azərbaycan birinciliyinə yekun vurulub.

Dörd gün davam edən və şəxsi xarakter daşıyan birincilikdə Bakı, Sumqayıt, Qaradağ, Şəki, Şabran, Gədəbəy və digər şəhər və rayonlardan 100-ə yaxın idmançı iştirak edib. Qalib gəlmiş idmançılara diplom və medallar təqdim olunub.

## İdmançımız peşəkarlar arasında dünya çempionu olub



Antalyada əlbəyaxa döyüş növləri üzrə növbəti dünya çempionatı keçirilib.

Dünya və Avropa çempionu Vüqar Əzimov Azərbaycan yığma komandasının heyətində bu çempionatda da uğurla çıxış edib. Otuz beş ölkənin idmançılarının qatıldığı mundialda 90 kiloqramdan yuxarı çəki dərəcəsində çıxış edən Azərbaycan idmançısı Vüqar Əzimov peşəkarlar arasında K-1 versiyası üzrə qızıl medal qazanıb. Təmsilçimiz İran və Marokko rəqibləri üzərində inamlı qələbə qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Bu qələbə sayəsində Vüqar Əzimov dünya çempionu titulunu qoruya bilib. Bu il onu daha iki sınaq gözləyir. O, sentyabrda Gürcüstanda Zaqafqaziya çempionatında və oktyabrda İspaniyada keçiriləcək dünya birinciliyində mübarizə aparacaq.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Məhəmməd NƏSİRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 310
Nüsxə 4600